# İqtisadi islahatlar uğurla həyata keçirilir



***Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatlar uğurla davam etməkdədir. Keçən ilin sentyabrında başlamış Vətən müharibəsində Ermənistan üzərində şanlı Qələbə qazanıldıqdan sonra dövlət başçısının islahatyönümlü addımları yenidən start götürüb. Azərbaycan lideri istər ölkə daxilində, istərsə də beynəlxalq forumlarda ölkəmizin apardığı islahatların müsbət reaksiya doğurduğunu bildirib. Onun sözlərinə görə, son illərdə Davos Ümumdünya İqtisadi Forumunun hesabatlarında da ölkəmizin nailiyyətləri xüsusilə qeyd edilir.***

Respublikamız avtomobil yollarının keyfiyyətinə görə dünya ölkələri arasında 24-27-ci yerləri bölüşür. Dəmir yollarının səmərəliliyinə görə 11-ci yerdədir. Hava nəqliyyatının səmərəliliyinə görə isə 12-ci yeri tuturuq. Təbii ki, bunlar böyük səylər, düşünülmüş siyasət, nəqliyyat infrastrukturuna qoyulan vəsait hesabına əldə olunub. Son 17 il ərzində magistral, şəhərlərarası və kənd yolları da daxil olmaqla 17 min kilometrdən çox avtomobil yolu istifadəyə verilib. Proses bu gün də davam etdirilir. Bu il azad edilmiş torpaqlarda da yol infrastrukturunun yaradılmasına start verilib. Hazırda Füzulidən Şuşaya yeni yol çəkilir.

Azərbaycanın təşəbbüsü ilə inşa olunmuş Bakı-Tbilisi-Qars dəmir yolu bölgəmizdə və bütövlükdə Avrasiyada yeni nəqliyyat xəritəsini yaradıb. Şimal-Cənub nəqliyyat dəhlizi ilə daşınan yüklərin həcmi təxminən 20 faiz artıb. Prezident bununla bağlı deyib: “Bizim dəmir yolu infrastrukturumuzdan bir çox ölkələr istifadə edir. Hazırda Çin–Qazaxıstan–Xəzər dənizi–Azərbaycan–Avropa marşrutu, eyni zamanda, Əfqanıstan–Türkmənistan–Xəzər dənizi–Azərbaycan–Avropa marşrutu mövcuddur”.

Bu gün Azərbaycan Xəzərdə ən böyük donanmaya sahibdir və hər il donanmaya yeni gəmilər təqdim edilir. Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Xəzər dənizində yükdaşımaların təşkili üçün əvəzolunmaz rol oynayır. Bakı gəmiqayırma zavodunda bütün növ gəmilər hazırlanır. Təyyarə parkımız hazırda dünyadakı ən müasir parklardan biridir. Bakıdakı Heydər Əliyev Beynəlxalq Hava Limanı beşulduzludur və dünyada belə hava limanlarının sayı 10-a yaxındır. Liman MDB-də birinci yerdədir. Son illərdə ölkədə 7 hava limanı inşa edilmişdir. Onlardan 6-sı beynəlxalq statusa malikdir. Bu yaxınlarda Füzuli şəhərində yeni beynəlxalq hava limanının inşasına start verilib. Azad edilmiş torpaqlarda ikinci beynəlxalq hava limanı da inşa ediləcək.

Texnoloji inkişaf haqqında danışan dövlət başçısı, ilk növbədə, peykləri qeyd etdi: “Biz peykləri orbitə çıxaranda bəziləri sual verirdilər ki, bu, nə üçün lazımdır. Ancaq həyat göstərdi ki, bu, bizə çox lazımdır... Vətən müharibəsi dövründə düşmənin hərəkətlərini onlayn formatda izləmək və onların təxribatlarının qarşısını almaq, əlbəttə ki, bizə əlavə üstünlük yaratdı. Təsadüfi deyil ki, Vətən müharibəsi, Azərbaycanın apardığı əməliyyatlar dünyada hərbi ekspertlər tərəfindən XXI əsrin müharibəsi adlandırıldı. Çünki bu, texnoloji inkişaf baxımından bir yenilik idi”.

Prezident İlham Əliyev ölkədə aparılan hərtərəfli islahatlardan danışarkən bildirib ki, Azərbaycan müstəqil siyasət yürüdür, heç bir ölkədən asılı deyil. Azərbaycan bütün qonşuları ilə mehriban münasibətdədir, lakin milli maraqlar həmişə birinci yerdədir. Buna görə də müstəqillik illəri ərzində əldə olunmuş bütün nailiyyətlər xalqımızın müstəqilliyə sadiq olmasına, siyasi və iqtisadi sahələrdə çox ciddi islahatlar həyata keçirildiyinə görə qazanılıb. Ölkədə aparılan infrastruktur, kadr və sosial islahatlardan danışan dövlət başçısı qeyd edib ki, yeni hökumət əsas diqqəti əhalinin artması ilə bağlı böyük çağırış üzərinə yönəldəcək. Buna görə də ölkədə iqtisadi artım əhalinin artımına uyğun gəlməlidir.

Müstəqillik illərində əhalinin sayı 7 milyondan 10 milyona qədər artıb. Bu, o deməkdir ki, əhaliyə əlavə infrastruktur, əlavə ərzaq təminatı tələb olunur. Ölkə əhalisi hər il 100 mindən çox artır. Bu isə o deməkdir ki, ildə azı 100 min iş yerinə ehtiyac yaranır. Dövlət başçısı qeyd edib ki, bu, asan deyil. Hökumət bu məsələ ilə məşğul olacaq. Biz yoxsulluğu bugünkü səviyyədə - 5 faizdən aşağı səviyyədə saxlamağa çalışacağıq. Həmçinin bizim birbaşa xarici borcun azaldılması ilə bağlı uzunmüddətli strategiyamız var. Bu gün bu borc çox aşağıdır, ümumi daxili məhsulun 17 faizini təşkil edir. Lakin bizim hədəfimiz onu ümumi daxili məhsulun 10 faizinə qədər endirməkdir. Əlbəttə ki, inflyasiyanın keçən il olduğu kimi, 2,5 faiz səviyyəsində, aşağı səviyyədə saxlanılması məsələsi üzərində də işləyəcəyik. İnsanların gəliri həmişə inflyasiyanı üstələməlidir, habelə iş yerlərinin yaradılması da demoqrafik artımdan daha çox olmalıdır.

Prezident İlham Əliyev mayın 30-da Türkiyə Respublikasının nəqliyyat və infrastruktur naziri Adil Karaismailoğlunu qəbul edərkən İkinci Qarabağ savaşından sonra yeni bir dəhliz üzərində çalışdığımızı bəyan edib. Bu, Zəngəzur dəhlizidir. Artıq beynəlxalq müstəvidə də bunun adı məhz Zəngəzur dəhlizi kimi təsbit edildi. Bu da Türkiyə ilə Azərbaycan arasında yeni bir bağlantını təmin edəcək. Dövlət başçısı deyib ki, müharibədən sonra ilk mərhələdə Ermənistan bu məsələ ilə bağlı öz etirazını bildirsə də, son vaxtlar artıq bu dəhlizin qaçılmaz olması ilə bağlı məsələləri düzgün təhlil edir. Hazırda bununla bağlı üçtərəfli çərçivədə müzakirələr aparılır: “Biz artıq azad edilmiş torpaqlarda Horadizdən Ermənistan sərhədinə qədər dəmir yolunun çəkilişinə start verdik. Əminəm ki, yaxın iki il, bəlkə iki il yarım ərzində o dəmir yolu tam istismara veriləcəkdir. Naxçıvan dəmir yolunun böyük hissəsi fəaliyyətdədir və çatışmayan hissə də inşa ediləcək, bütün təlimatlar verilib. Ermənistan ərazisində Zəngəzur dəhlizinin önəmli hissəsi inşa edilməlidir. Beləliklə, yeni bir dəhliz açılacaq və Türkiyə-Azərbaycan arasında bu bağlantı daha da möhkəm olacaqdır”.

Cənab İlham Əliyev mayın 25-də “Signify” (əvvəlki adı “Philips Lighting”) şirkətinin baş icraçı direktoru Erik Rondolatı qəbul edərkən şirkət tərəfindən Azərbaycanda həyata keçirilən layihələrin icrası ilə bağlı məsələləri müzakirə edib, görülən işlərdən məmnunluğunu bildirib. E.Rondolat da Azərbaycanda aparılan genişmiqyaslı islahatlar, yaradılan əlverişli biznes və investisiya mühitinə görə dövlətimizin başçısına minnətdarlıq edib. O, Bakı və Sumqayıtda işlərin yekunlaşdığını, Şamaxıda isə başa çatmaq üzrə olduğunu bildirib. Onun sözlərinə görə, tətbiq olunmuş yeni texnologiyalar sayəsində layihələrdə elektrik enerjisinə 50 faiz qənaət təmin edilib. Gələcəkdə isə bu qənaət 75-80 faizə çatdırılacaq.

Prezident İlham Əliyev yeni texnologiyaların Gəncə, Mingəçevir, Şəki, Qəbələ, Şirvan və Lənkəran şəhərlərində də küçə işıqlandırılmasında tətbiqinin vacibliyini qeyd edib. Şirkət direktorunun sözlərinə görə, işğaldan azad edilmiş ərazilərin, xüsusən Şuşa və Ağdam şəhərlərinin baş planlarının hazırlanması istiqamətində ciddi işlər gedir və şirkətinin baş planların hazırlanması prosesinə qoşulması məqsədəuyğundur. Söhbət zamanı yeni işıq texnologiyalarının tətbiqi ilə tərəvəzçilikdə, quşçuluq və balıqçılıq təsərrüfatlarında yüksək məhsuldarlığa nail olunması üçün pilot layihələrin həyata keçirilməsi ilə bağlı məsələlər müzakirə olunub.

Məhz ölkədə aparılan iqtisadi islahatların mühüm nəticələrindən biridir ki, mayın 15-də Qəbələ Dəmir Yolu vağzalının və Ləki stansiyası-Qəbələ birxətli dəmir yolunun açılışı olub. Dəmir yollarının müasirləşdirilməsi ölkəmizin iqtisadi potensialını nümayiş etdirməklə yanaşı, həm də sosial sahənin inkişafına yüksək diqqətin real göstəricisidir.

Azərbaycan Prezidenti mayın 10-da Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində Azərbaycan Televiziyasına müsahibəsində də deyib ki, Ordubad dəmir yolu stansiyası ilə tanışlığı təsadüfi xarakter daşımır. Bunun çox böyük rəmzi mənası var: “Bu yaxınlarda buradan təqribən 50-60 kilometr uzaqlıqda yerləşən Mincivan qəsəbəsinin ermənilər tərəfindən dağıdılmış dəmir yolu stansiyasında baxış keçirdim. Orada dəmir yolu mövcud deyil. Mənfur düşmən bütün dəmir yolu infrastrukturunu dağıdıbdır, talan edibdir. Orada bir mərkəz olacaq, burada bir mərkəz olacaq. Zəngilanı Naxçıvanla ayıran cəmi 40 kilometrlik Zəngəzur dəhlizidir, hansı ki, açılmalıdır və açılacaqdır... Biz bu məsələni daha çox Rusiya tərəfi ilə müzakirə edirik. Şərqi Zəngəzur bölgəsində yerləşən Zəngilanı bizim qədim torpağımız olan Qərbi Zəngəzurla, ondan sonra Ordubad vasitəsilə Naxçıvanla və Türkiyə ilə birləşdirmək bizim növbəti tarixi nailiyyətimiz olacaq. Əminəm ki, bu, olacaqdır, məndə heç bir şübhə yoxdur”.

Prezidenti İlham Əliyev aprelin 28-də Dünya İqtisadi Forumunun prezidenti Borge Brende ilə videokonfrans formatında görüşü zamanı da ölkəmizlə forum arasında uzunmüddətli səmərəli əməkdaşlığın həyata keçirildiyini vurğulayıb. Bildirib ki, Azərbaycan ilə Dünya İqtisadi Forumu ölkəmizdə qeyri-neft sektorunun inkişafı sahəsində uğurla əməkdaşlıq edir. Dövlətimizin başçısı işğaldan azad olunmuş ərazilərdə yenidənqurma prosesinin getdiyini, qarşıda nəhəng işlər durduğunu və böyük bir ərazinin tamamilə yenidən qurulacağını qeyd edib. İndi səylərin əsas istiqaməti ərazilərin yenidən qurulması olacaq.

Görüşdə dövlət başçısı Dünya İqtisadi Forumunun Dördüncü Sənaye İnqilabı Mərkəzləri Şəbəkəsinin Azərbaycan Mərkəzinin MDB regionunda ilk olaraq Bakıda yaradılmasına görə minnətdarlığını bildirib, iqtisadiyyatı şaxələndirmək və islahatları davam etdirmək üçün, eləcə də investisiyaların cəlbi baxımından mərkəzin böyük rol oynayacağını bildirib. Beləliklə, iqtisadi islahatlar istər regional, istərsə də beynəlxalq səviyyələrdə əməkdaşlıq şəraitində uğurla həyata keçirilir və özünün müsbət nəticələrini verir.

***Paşa ƏMİRCANOV,***
***“Xalq qəzeti”***